

*Fəxri Müslüm*

## Hacı Müzəffərə

Ömür-gün dediyin Günəşdi, Aydı,
Işi-işartısı min ildi Hacı.
Bir üzü payız-qış, bir üzü yaydı,
Qürurun, abırna tən oldu Hacı.

Hər işin döngədən, yoxuşdan keçdi,
Çisəkdən, çənindən, yağışdan keçdi,
Elə, ilmələnmiş naxışdan keçdi,
Ağırlıq, çəkinə yan aldı Hacı.

Səni dəyişmədi nə kənd, nə şəhər,
Açdı kipriyində danüzü, səhər,
Güney gün altında, quzey təzə tər,
Laləsi biçilmiş don oldu Hacı.

Canda xatirələr üşüdü biraz,
Ürək damar-damar tövşüdü biraz,
Arpasız at kimi kövşədi biraz,
Zaman da, ələnib an oldu Hacı.

Alnın da, dağların qırış yeridi,
Aylarla, illərlə yarış yeridi,
Biraz qocalıqla barış yerdi,
Qəm yemə, yüzünə yön aldı Hacı.

Ömür-gün dediyin Günəşdi, Aydı,
Işi-işartısı min ildi Hacı.
Bir üzü payız-qış, bir üzü yaydı,
Qürurun, abırna tən oldu Hacı.

## Payız düşüncələri

Külək ağzında toparlanan boz bulud
mənzilinə, yurda daşınar.
Nəmə tutub neçə-neçə aşacağı-aşrımı,
neçə-neçə keçidi,
gah göyə, gah yerə daşınar.
Sanki
xurma bağlarına tələsiyən
və ömrümdən qopan,
payızın qatarlanmış durna köçüdü,
kölgəsi,
acılı-şirinli xatirələrimə
biçilmiş ağ köynək.
Payızın yarpaq tökümü,
torpağın qızıl çuxasıdı
ölüm-itim qoxusu gələr.
Xırman da,
buğdanın
vər altında döyülən yeri,
sığal yeri,
bəlim qoxusu gələr.
Yaz,
açılar nəfəsin bənövşə yolu,
nərgiz yolu.
payız,
həsrətin sükut yolu, səssiz yolu.
Yaz,
yaylaq ətriylə,
çiçək ətriylə, gül ətriylə
qəlbin ruhu, havasıdı,
Payız,
ulduzların bərq vuran
siyah rəngli işıqları altında
köç əhvalına tutulmuş ömrün,
göylərə köçən,
gözəl bir, ölüm sinfoniyası.

## Kimidi

Səmadan asılmış
piltəli, şüşəli,
otuzluq çıraq lampasıyam.
Ağırlığım,
papağımı,
işığım dabanımı basır,
kölgəyə,
zülmətə dönmüş gecəm zamanımı.
Ömür qalıb
darıla-darıla,
sanki,
bağda-baxçada tək-tük əkilmiş
yapon palıdıdı.
Bulud budaqlarımı döyür,
yağışın,
çillə çıxaran çırpanağı,
sırtıq,
yuyulmamaış adamlar tək,
payızın saralan yarpağına dönmüş
sifətimi, yanağımı.
Biz,
Bilmədiyimiz halda,
məğrur yapon, hardan bilsin
ağrı verən ağrılara, acılara,
zaman-zaman kirəclənmiş,
qat bağlamış
dərdlərə caladığımız
palıdının qəribliyini,
Səmadan asılmış qara hisli,
otuzluq çıraq lampasıyam,
öləzimiş işığımın çevrəsində
qara yapıncıya dönmüş qaranlıqlar,
adamın basaratını basır,
sanki,
cəhənnəmin dibidi,
könlüm daraq-daraq daranıb,
tarım çəkilir,
ermənilərə,
əsir düşmüş yurddakı evlər kimidi.

## Zamanın kölgəsiylə

Arzu, istək
yun kimi çözülsə də,
örkən kimi dolansa da,
qeyrət içində boğula-boğula,
səbrə dirəndik canımız üstdə.
Hal-əhvalımız,
yer dəyişdi, göy dəyişdi,
yurd dəyişdi,
öy dəyişdi qanımız üstdə.
Ərinə-ərinə atdan enib,
çorta gedən, noxtasız,
palansız eşşək mindik it günündə,
Sanki,
kirəclənmiş kərpic-kərpic lay divarıq,
Çin səddi tək,
uğurlu-uğursuz cığırlar, yollar önündə.
İçi, çölü gözlərində göyərmiş
yarı canavar,
yarı pişik,
yarı, tüpürcəksifət adamlar
arı, xəcaləti boynun dalında
misgər misi kimi qızara-qızara,
zamanın utanc yeriymiş,
ağırlığını çəkən biz.
Bu sifətlərin
sərt, şillə acısına tutumundan,
nə yaxşı ki,
murdarlığı yol açmadı,
su səpilə,
hirsindən, susuzluqdan
gül açmış, çiçək açmış ürəklərə,
ümidinə,
sarmaşıq tək sarılmış diləklərə.
Üstəlik də,
zaman sifətləri dəyişmədi,
əksinə,
bu, murdar sifətlər zamanı dəyişdi.
zamanı yendi.
İndi,
zamandan it qoxusu,
üfunət qoxusu, çözəm qoxusu gəlir.
ömrümüzə,
canımıza bu üfunət,
bu qoxu yeridikcə,
ömür qorxusu,
yaşam qorxusu buludun,
dumanın kölgəsi ilə əlləşir
Ağıllı-başlı,
kişi kimi ölməyimiz vaxtın,
zamanın kölgəsiylə...

Ədalət 2019.- 14 dekabr.- S.12.